AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Muzeyşünaslıq kafedrası

“Müasir muzey konsepsiyaları” fənni üzrə

Magistr pilləsi üçün

Proqram

060301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması

Fənnin koduMİF-B04-1

ADMİU-nun Elmi Şurasının 30 mart 2018-ci il tarixli 06 saylı protokolu ilə təsdiq olunmuşdur.

Bakı – 2018

Tərtib edənlər: **Elfira Hacıbaba qızı Məlikova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Aygün Rüstəm qızı Eyvazlı
Kulturologiya üzrə fəlsəfə doktoru, baş müəllim

Elmi redaktor: **Yeganə Məhəmməd qızı Eyvazova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Mira Arif qızı Məmmədxanova**
Azərbaycan Xalça Muzeyinin baş mühafizi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

Oqtay Paşa oğlu Sultanov
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

© ADMİU

İZAHAT VƏRƏQİ

Tarixən muzey fəaliyyətinin başlanğıcında sadə üsullardan istifadə edilmişdir. Konkret olaraq kolleksiyaların bir toplum halında bir araya gətirilməsi muzeylərin ilkin şərtlərindən olmuşdur. Muzeylərin qapalı xarakter daşıması, xalqa xidmət etməməsi dövrün real həqiqətlərini üzə çıxarır. Məhz Avropada XVI XVII XVIII əsrlərdə bu həqiqətlərin olması müxtəlif elmi mənbələrdə işıqlandırılır. Dövrlərin tələbinə görə muzeylərin cəmiyyət üçün əhəmiyyəti getdikcə düzgün qiymətini aldı, lakin daxili strukturu XX əsrdə tam formalaşdı. Müasir muzeylər əsrlərlə tarixi yol keçərək püxtələşdi. Muzeylərin tarixi-mədəniyyət abidələrini qoruyaraq, təbliği öyrənilməyə başladı. Xalqın-ziyarətçilərin muzeyə gəlmə mədəniyyətinin formalaşdırılması müasir dövrdə də problem xarakteri daşıyır. Muzey fəaliyyətində ziyarətçi üçün maraq doğuran bir sıra yeniliklər artıq XIX əsrin başlanğıcında özünü göstərdi. Belə ki, “muzey kitabxanasının yaradılması” ənənəsi davam edildi. Cəmiyyətdə “kitab anlayışı” artıq əsrlərlə formalaşdığı halda “muzey anlayışı” bir qədər geridə qalırdı. Muzeylərin yaradılması prosesinə ayrı-ayrı ölkələrdə müxtəlif aspektlərdən yanaşılırdı. Muzeylərin profillərə bölünməsi tarixi hadisələrin nəticəsi idi. Tarix və kitabxana profilli

muzeylərin yaranması xüsusilə. (Dövlətlərin işğalçı dövlətlər tərəfindən zəbt edilməsi, xalqın tarixinə və mədəniyyətinə edilən təcavüz və s.). Kolleksiyaların müxtəlif taleyi öyrənilməsi çətin olan məlumatlar xaotik xarakter daşıyırdı. Lakin birinci növbədə məsələ əldə olan əsərlərin muzey fondlarında yerləşdirilməsi idi. XIX əsrin sonu XX əsrin əvvəllərində muzeylərin elmi-mərkəzlərə çevrilməsi təsadüfi deyil. Muzey-fond-kolleksiya-ekspozisiya-ekskursiya prosesi böyük informatik araşdırmalar tələb edirdi. Bu iş muzey əməkdaşlarının üzərinə düşürdü (birbaşa olaraq elmi əməkdaşlar). Muzey fondlarında tədqiqatların aparılması üçün böyük elmi potensiala malik olan mütəxəssislər tələb olunurdu. Muzeylər problemlərin aradan qaldırılmasına çalışsalar da böyük problemlərlə üz-üzə galmışlar. Bir sıra muzey problemləri müasir dövrdə də aktuallığını itirmir.

Muzey və ziyarətçilərin qarşılıqlı əlaqəsi ekskursiya zamanı və muzey tədbirlərində üzə çıxır. Müxtəlif yaş qrupu ilə işin aparılması üçün müasir dövrün tələb etdiyi müəyyən faktları izah etməyin mühüm olduğu danılmazdır. Bu işin nəticələri muzey dərnək və klublarında da özünü göstərir.

Müasir muzey konsepsiyası, tarixən formalaşan muzey fəaliyyətini özündə ehtiva edir. Lakin, cəmiyyətin yeni

ideallara tapınması, müxtəlif hadisələrin, (o cümlədən elmdə) baş verməsi, maraq dairəsini genişləndirir. Bütün sahələrdə olduğu kimi, muzeylərdə də fundamental şəkildə işlərin araşdırılaraq aparılmasına ehtiyac duyulur. Yalnız muzey işini gözəl bilən mütəxəssislərin köməyi olmadan bu yenilik baş tutan deyil. Həqiqətən də hər bir yenilik, yaddan çıxmış köhnəlik əsasında həyata keçirilməlidir.

"Müasir muzey konsepsiyaları" fənni üzrə proqram "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" ixtisasında magistr pilləsi üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Fənnin tədrisinə 6 kredit, ümumi 45 saat (30 s. mühazirə +15 s. seminar) ayrılmışdır.

№	Mövzuların adı	Müh.	Sem.
1.	Avropada yeni tipli muzeylərin yaranması və inkişaf mərhələləri	2	
2.	Professional muzey təhsili; nəzəriyyə və təcrübənin əlaqəsi.	2	2
3.	Muzeylərdə mediator, ekskursavod, pedaqoqların faaliyyəti	2	

4.	Müasir muzeylər mədəniyyət institutları kimi	2	2
5.	Muzey üçün kadrların hazırlanması prosesi.	2	
6.	Muzey bələdçisi; problemlər və perspektiv.	2	2
7.	Gənc muzey işçilərinin elmi-maarifləndirmə istiqamətində hazırlanması.	2	
8.	Ali məktəblər və muzeylər; pedaqoqların qarşılıqlı fəaliyyəti	2	2
9.	Muzey üçün hazırlanan mütəxəssislərlə iş	2	
10.	Müasir muzeylər və muzeysünaslar	2	2
11.	Onlayn muzeylərinin inkişafında gənc mütəxəssislərin rolu.	2	
12.	Müasir muzeylərə kömək; xüsusi proyektlər və könüllülərlə iş.	2	2
13.	Virtual sərginin keçirilməsi üçün yeni proyektlərin hazırlanma qaydaları	4	2
14.	Muzey kadrlarının hazırlanmasi qaydaları	2	1
CƏMİ: 45 saat		30	15

Mövzuların açılışı

Mövzu 1. Avropada yeni tipli muzeylərin yaranması və inkişaf mərhələləri

XVIII-XIX əsrlər Avropada yeni tipli muzeylərin yaradılması tarixi hadisə kimi. Muzeylərin ictimailəşdirilməsi. Ekskursiyaların təşkili. Muzey kitabxanaların davamlı olaraq yaradılması və istifadəyə verilməsi. Yeni yaradılacaq muzeylər üçün binaların inşa edilməsi.

Mövzu 2. Professional muzey təhsili; nəzəriyyə və təcrübənin əlaqəsi

Muzey işinin çoxşaxəli və çoxçalarlı fəaliyyəti haqqında.
Müasir muzey təhsilinin professional şəkildə inkişafinda qarşıya çıxan əsas 3 tələbin həlli istiqamətləri:
1.“Muzey menecmenti'' anlayışının dərindən öyrənilməsi;
2.Muzey kolleksiyaları və onların qorunması istiqamətində menecmentin fəaliyyəti;
3.Sərgilərin təşkili.

Bir sıra dünya ölkələrində, o cümlədən Amerika Birləşmiş Ştatlarında professional muzey təhsilində nəzəriyyə və

təcrübənin əlaqələri. Amerika Universitetlərində professional uzey təhsilinin formalaşması üçün tərtib edilən proqramlarda yeni paradiqmalar.

Muzey və təhsil müəssisələri; qarşılıqlı əlaqələr, müqavilənin bağlanması istiqamətləri. “Muzey və cəmiyyət”, ”Muzeylər mədəniyyət institutları kimi” mükəmməl anlayışların təhlili və öyrənilməsi.

Mövzu 3. Muzeylərdə moderator, ekskursavod, pedaqoqların fəaliyyəti

Müasir muzey fəaliyyətində yüksək peşəkarlıq, dəqiqlik, elmilik işinin təhlili. Çoxşaxəli muzey yaradıcılığında elmi-maarif, pedaqoji və estetik tərbiyə sahələrinin araşdırılması. Muzey interfeysi. Muasir audutoriya ilə ünsiyyətin dili və üslubu. Müasir muzey kommunikasiyasının audutoriya ilə ünsiyyət əlaqələri. Ziyarətçinin eksponatla ünsiyyətinin qurulmasında moderatorun rolu. Real və virtual auditoriya ilə işləmə mexanizminin elmi təhlili. Qnesioloji üçbucaqda muzey predmeti:

1.komplektləşdirmə, 2.mühafizə, 3.təqdimat

Muzey pedaqogikasının elmi fənn kimi muzeyşünaslıq, pedaqogika və psixoloqiya qovşağında. Muzey pedaqoqunun vəzifəsi. Muzey təhsil sistemi kimi. Müasir muzey yaradıcılığında elmi-praktiki sahə.

Mövzu 4. Müasir muzeylər mədəniyyət institutları kimi

Mövzu5.Müasir **muzey konsepsiyalarında kadr məsələsi**

Azərbaycan dövlətinin muzey siyasətində kadrların hazırlanması üzrə prioritetləri. ADMİU- muzey kadrlarının hazırlanma mərkəzi kimi.. Muzeysünaslıq ixtisası üzrə kurs aparan pedaqoqların muzeylərlə əlaqəsi; Muzey və universitet arasında təcrübə mexanizminin öyrənilməsi qaydaları.

Mövzu6. Muzey bələdçisi: problemlər və perspektivlər

Muzeylərdə ekskusiyaların aparılma qaydaları. Müxtəlif audutoriya ilə işləmə bacarığı; pedaqoji və psixoloji hazırlıq. Müvafiq muzeyin, real tələblərinə cavab verəcək ekskursiyaların təşkili.

Mövzu 7.Gənc muzey işçilərinin elmi-maarifləndirmə istiqamətində hazırlanması

Gənc muzey işçilərinin elmi potensialının inkişafına yardım etmək, elmi sahələr üzrə ümumi şəkildə maarifləndirmə işinin aparılması yollarını yaratmaq.

Mövzu 8. Ali məktəblər və muzeylər: pedaqoqların qarşılıqlı faaliyyəti

Muzey və ali məktəb pedaqoqlarının ayrı-ayrılıqda və qarşılıqlı iş əlaqələri. Muzeyin real imkanlarından istifadə bacarığı.

Mövzu 9. Muzey üçün hazırlanan mütəxəssislərlə iş

"Qloballaşma prosesində milli mədəniyyətin qorunması" anlayışının gənclərə aşılanması. Yeni informasiya texnoloqiyalarının inkişafı dövründə gənclər arasında milli etnik xüsusiyyətlərin daim qorunub saxlanmasını təmin etmək.

Mövzu10. Müasir muzeylər və muzeysünaslar

Muzeyşünasların muzeylərlə təmasını gücləndirmək üçün "Muzey klubu","Həvəskar birliklər" və s. yaradılması.

Muzeylərdə təcrübə keçən muzeyşünas-tələbələrin ciddi fəaliyyətini təmin etmək.

Mövzu 11. Onlayn muzeylərinin inkişafında gənc mütəxəssislərin rolu.

Gənclərin internet şəbəkələrindən istifadə bacarığının real üstünlüyü. Muzeylərin interaktiv tələbləri."Virtual qalereyalar"ın yaradılması. Cəmiyyətdə baş verən dəyişikliklərin,informasiyanın inkişafı ziyarətçi - muzey kommunikasiyasına təsiri.

Mövzu 12.Müasir muzeylərə kömək; xüsusi proyektlər və könüllülərlə iş (Müasir muzey konsepsiyalarında layihələrin, könüllülərlə işin təşkili məsələlərinin həlli)

Könüllülərin muzey işinə yardımı. Muzey tədbirlərinin çoxşaxəli və daimi keçirilməsinə kömək edən könüllülərin əsas iş rejimi. Muzey tədbirlərinə dəvət olunanlar, muzey kollektivi, könüllülər və muzeyi ziyarət edənlərin əlaqəli işi ,kommunikasiya strukturunun xüsusi layihəsi kimi.

Mövzu13. Virtual sərginin keçirilməsi üçün yeni proyektlərin hazırlanma qaydaları

Tələbələrin virtual sərgi keçirilməsində yardımı muzey ilə qarşılıqlı əlaqələrinin qurulmasıdır. Tələbə keçirilən virtual sərginin kataloqunu tərtib etməlidir. Kompyuter texnoloqiyası reallığı yeni formada təqdim edir. **(Proqramda açılışlar adlıq cümlələrlə ifadə olunmalıdır. Odur ki, bu fikirləri redaktə edin! Adlıq cümlələrə çevirin!)**

Mövzu 14.Muzey kadrlarının hazırlanmasi qaydaları

Muzeyşünas kadrların I-IV kurslar arasında keçdiyi fənlərin ixtisas hazırlığına təsiri. Təhsil zamanı mütəmadi olaraq muzeylərə yürüş, muzey tədbirlərində aktiv iştirak etmək. (**Bu fikirlər 8,10-cu mövzulardatəkrar olunur).**

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000.
2. Muzeyşünaslıq (dərslik), Bakı, “Mars-Print”, 2002

3. E.Qurbanova, Dünya muzeyləri – Kataloq Metodik tövsiyə Bakı, 1995
4. Azərbaycan Respublikasının Qanunlar külliyyatı.B.;Qanun,2001.
5. Muzey ekspozisiyasının layihələndirilməsinin bəzi məsələləri (Referat), B.1991.
6. Muzeyşünaslıq. Dərslik.B.2001.
7. Azərbaycan Milli Tarix muzeyi- 80, Bakı-2000-2014
8. E.Məlikova "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası" Dərslik Bakı – 2011
9. E.Məlikova "Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" Monoqrafiya Bakı -2014

Rus dilində:

1.Музееведение. Учебник. М.; 2009.
2.Вопросы музейной работы. М., 1974
3.Игнатева В. И. Музееведение. Советские музеи. М., 1968.
4.Очерки истории музейного дела в СССР. М.,1963.
5.Фигол Д. И Методика научной пропаганды и культурно-массовой инаучно-просветительной работы музеев. М., 1974

6.История музейного дела в СССР. М., 1957.
7.“Музей” – М, 1950 -80г
8.В.Гарник Очерки музейного дела Аз. ССР. Москва 1963
9.Очерки музейного дела в СССР. М.,1963

Ədəbiyyatlar köhnədir. Yeni ədəbiyyatlarla əvəzləyin!

Sərbəst mövzular

1. Muzeyşünaslıq elminin strukturu
2. Muzeyşünaslıq elminin digər elmlərlə inteqrasiyası
3. Muzeyşünaslığın ümumi nəzəriyyəsinin əsas istiqamətləri
4. Fond işinin nəzəri əsasları
5. Muzeyşünaslıq tarix elmləri sistemində
6. Muzeylər sənətşünaslıq elmləri sistemindəı
7. Muzeyşünasklıq elminin elminin digər elmlərlə inteqrasiyası
8. Muzeylərdə elımi-tədqiqat işinin aparılma qaydaları
9. Muzey arxivləri tədqiqatın əsas mənbəyi kimi
10. Arxiv sənədlərinin qorunma qaydaları
11. Muzey tədbirləri və onların formaları
12. Muzeylərdə elmi-nəzəri konfransların təşkili qaydaları

13. Muzey pedaqoqunun vəzifələri
14. Muzey və təhlil müəssisəsinin əlaqəli şəkildə fəaliyyəti
15. Muzey ekspozisiyasınmın bədii-memarlıq həllinin nəzəri əsasları
16. Muzey profillərinin fərqli və oxşar cəhətləri
17. Arxeoloji qazıntıların muzey fəaliyyətinə təsiri
18. Şəhər və regional muzeylərin əlaqəli təsiri